UOT 657.1.014.133 JEL M410

*Aynur Əsgər qızı ADIGÖZƏLOVA*
*Azərbaycan Kooperasiya Universitetinin*
*"Mühasibat uçotu və audit"*
*kafedrasının baş müəllimi, dissertant*

# MÜƏSSİSƏNİN UÇOT SİYASƏTİNİN SEQMENT UÇOTUNUN ƏSAS XÜSUSİYYƏTLƏRİNƏ UYĞUNLAŞDIRILMASININ BƏZİ MƏSƏLƏLƏRİ

*Xülasə*

Məqalədə seqment uçotunun tətbiq edildiyi şəraitdə müəssisənin uçot siyasətinin formalaşdırılmasının seqmentar hesabatlılıq sisteminə əhəmiyyətli təsir göstərə bilən məsələlərdən bəhs edilərək, uçot siyasətinin seqment uçotunun xüsusiyyətlərinə uyğun təkmilləşdirilməsinə dair təkliflər verilir.

***Açar sözlər: müəssisənin uçot siyasəti, seqment uçotu, əsasnamə, izahlı qeydlər.***

*Giriş*

Müasir dövrdə ölkəmizdə mühasibat uçotunun inkişafı istiqamətində ciddi islahatlar aparılır. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa 4 may 2018-ci ildə edilmiş dəyişikliklər mühasibat uçotunun iqtisadiyyatın yeni iqtisadi inkişaf hədəflərinə uyğun təkmilləşdirilməsi məqsədlərinə yönəldilmişdir. [1, s. 4] Mühasibat uçotunun inkişafında belə istiqamətlərdən biri də iqtisadiyyatın müxtəlif sahələrində seqment uçotunun tətbiq edilməsindən ibarətdir. Müəssisə və təşkilatlarda seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin tətbiq edilməsi seqmentar idarəetmə sisteminin tərkib hissəsi olmaqla, kommersiya fəaliyyətinin əlverişli şəkildə genişləndirilməsinə, gəlirlərin artırılmasına və rentabelliyin yüksəldilməsinə gətirib çıxardır.

Ticarət müəssisələrində seqment uçotunun formalaşdırılması və tətbiq edilməsinə dair aparılmış tədqiqat işlərinin əsas məzmunundan aydın olur ki, müəssisədə seqment uçotunun tətbiq edilməsi müəyyən ardıcıllığa malik olan bir sıra silsiləvi hazırlıq işlərinin yerinə yetirilməsini tələb edir. Diqqəti cəlb edən əsas metodiki məsələlərdən biri ondan ibarətdir ki, seqment uçotunun tətbiqinə növbəti maliyyə ilinin əvvəlindən başlamaq, hazırlıq işlərini isə cari ildə, yəni seqment uçotunun tətbiqindən əvvəlki ildə yerinə yetirmək lazımdır. [2, s. 5]

**Mühasibat uçotu və maliyyə hesabatları üzrə beynəlxalq standartın tələbləri**

Müəssisədə seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin tətbiq edilməsi istiqamətində yerinə yetirilən hazırlıq işlərinin mühüm tərkib hissələrindən biri də müəssisənin uçot siyasətinin seqment uçotunun prinsiplərinə uyğunlaşdırılmasından ibarətdir. "Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər" adlı 8№-li Mühasibat Uçotunun Beynəlxalq Standartının tələblərinə görə, müəssisənin uçot siyasətində hər hansı bir maliyyə ilinə aid tətbiq ediləcək dəyişikliklər ondan əvvəlki ilin sonunadək rəsmiləşdirilməli və həmin əvvəlki ilin maliyyə hesabatlarının tərkib hissəsi kimi təqdim edilən izahlı qeydlərdə açıqlanmalıdır. Həmin Standartın məqsədi onun 1-ci maddəsində belə göstərilir: "Bu Standartın məqsədi uçot siyasətində və uçot qiymətləndirmələrində edilən dəyişikliklərə və səhvlərin düzəldilməsinə dair məlumatın açıqlanması və mühasibat uçotunun aparılması ilə yanaşı, uçot siyasətinin seçilməsi və dəyişdirilməsi üçün istifadə olunan meyarların müəyyən olunmasından ibarətdir". [3, m.1] Burada göstərilən dəyişikliklər, düzəlişlər, açıqlamalar, uçot siyasətinin seçilməsi və dəyişdirilməsi, meyarların müəyyən olunması məsələləri seqment uçotuna və seqmentar hesabatlılıq sisteminin təşkil edilməsinə münasibətdə mühüm əhəmiyyətə malikdir. Belə ki, müəssisədə seqment uçotunun tətbiq edilməsi özlüyündə seqmentar hesabatlılıq sisteminin təşkil edilməsi ilə nəticələnir ki, bunların da hər ikisi uçot siyasətinin özünəməxsus şəkildə müəyyən edilməsini və həmin şəraitə münasib olan siyasətlərin, tənzimləmələrin və meyarların seçilməsini şərtləndirir. Ona görə də seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin tətbiq edilməsi şəraitində müəssisənin uçot siyasətinin necə formalaşdırılması məsələlərinə diqqət yetirilməsi məqsədəuyğun hesab edilir.





**Müəssisənin uçot siyasətinin seqment uçotuna uyğun təşkili məsələləri**

Müəssisənin uçot siyasətinin necə təşkil edilməsi məsələləri onun uçot siyasəti haqqında əsasnaməsində əks olunur. Ona görə də müəssisənin seqment uçotuna hazırlanması proseslərinin mühüm tərkib hissələrindən biri onun uçot siyasəti haqqında əsasnaməsində lazımi dəyişiklik və əlavələrin edilməsindən ibarətdir. Uçot siyasəti haqqında əsasnaməyə müəssisənin seqmentləri haqqında məlumatların əlavə edilməsi vacib məqamlardan hesab edilir. Ona görə ki, seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin tətbiq edildiyi müəssisələrin illik maliyyə hesabatlarında seqmentlər üzrə məlumatlar bu əsasnamədə verilmiş informasiyalar əsasında açıqlanır.

Məsələn, "Alfa" MMC-nin uçot siyasəti haqqında əsasnaməsində MMC-nin tərkibində yaradılmış əməliyyat seqmentləri haqqında ümumi məlumatlar belə göstərilməlidir:

***"Alfa" MMC-nin uçot siyasəti haqqında əsasnaməsindən çıxarış[1]***

*Əməliyyat seqmentləri haqqında məlumatlar*

*"Alfa" MMC-də 01 yanvar 2020-ci il tarixindən etibarən qismən müstəqil biznes fəaliyyəti həyata keçirərək, bu fəaliyyətdən ayrıca hesablanıla bilən gəlirlər qazanan və bunun üçün də ayrıca hesablanıla bilən xərclər edən, bununla da biznes fəaliyyətinin maliyyə nəticələri dəqiqliklə müəyyən edilə bilən, fəaliyyəti müəssisənin rəhbəri tərəfindən təyin olunmuş menecer və əsas qərarları qəbul edən baş qərar qəbul edici şəxs tərəfindən müntəzəm olaraq təhlil edilən və onların nəzarətində saxlanılan, bunların əsasında haqqında ayrıca maliyyə məlumatları formalaşdırılan aşağıdakı əməliyyat seqmentləri fəaliyyət göstərir:*

*1) topdanticarət əməliyyatları seqmenti;*

*2) pərakəndə ticarət əməliyyatları seqmenti;*

*3) ictimai iaşə əməliyyatları seqmenti.*

*Bu əməliyyat seqmentləri üzrə gəlirlərin, xərclərin və maliyyə nəticələrinin düzgün müəyyənləşdirilməsi üçün hər bir seqment üzrə biznes fəaliyyətinin uçotu ayrı-ayrılıqda təşkil edilərək, hər bir hesabat dövrünə aid seqmentar maliyyə hesabatı təqdim edilir.*

*Rəhbərlik hər bir seqmentin fəaliyyətini vergidən sonrakı mənfəət göstəricisinə əsasən qiymətləndirir.*

***1- Müəllif tərəfindən tərtib olunmuşdur.***

"Alfa" MMC-nin uçot siyasəti haqqında əsasnaməsinin burada verilmiş müddəaları əsasında hər ilin sonunda təqdim ediləcək illik maliyyə hesabatları üzrə izahlı qeydlərdə hər bir əməliyyat seqmentinə dair məlumatlar açıqlanacaqdır. Burada əvvəlcə əməliyyat seqmentləri haqqında ümumi məlumatlar, sonra isə onların kommersiya-biznes fəaliyyətinin hesabat ilinə aid olan göstəriciləri verilir. Məlumdur ki, müəssisənin maliyyə hesabatları özündə 2 illik məlumatları əks etdirir. Ona görə də izahlı qeydlərdə də əməliyyat seqmentlərinin kommersiya-biznes fəaliyyətinə dair 2 illik məlumatlar açıqlanmalıdır. "Alfa" MMC-də əməliyyat seqmentləri 01 yanvar 2020-ci ildən fəaliyyətə başladığına görə, 31 dekabr 2020-ci ilə aid olan maliyyə hesabatları üzrə izahlı qeydlərdə əməliyyat seqmentlərinə dair yalnız 2020-ci ilə aid olan məlumatlar açıqlanacaqdır. 31 dekabr 2021-ci ilə aid olan maliyyə hesabatları üzrə izahlı qeydlərdə isə həm 2020-ci ilə, həm də 2021-ci ilə aid olan 2 illik məlumatlar açıqlanacaqdır. Bundan sonrakı illərdə hər il cari hesabat ilinə və ondan əvvəlki, yəni keçmiş ilə aid olan seqment məlumatları açıqlanmalıdır. Seqment məlumatlarının bu qaydada açıqlanması onların keçən illə müqayisə olunması üçün əlverişli şərait yaradır.

Qeyd etmək lazımdır ki, tədqiqat işinin gedişatı prosesində ölkəmizdə fəaliyyət göstərən ticarət sferasında seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin ümumiyyətlə, tətbiq edilmədiyi aşkar olundu. Azərbaycanda ticarət fəaliyyəti ilə məşğul olan kifayət qədər çoxsaylı iri həcmli şirkətlərin mövcud olmasına baxmayaraq, onların internet resurslarında seqmentar hesabatlılıq sisteminə aid heç bir informasiya yoxdur. Belə bir vəziyyət seqment uçotu və seqmentar hesabatlılıq sisteminin tədqiq edilməsi prosesində qarşıya çıxan ciddi məhdudiyyət kimi qeyd edilir. Ona görə də burada seqment uçotu və seqmentar hesabatlılıq sisteminin tətbiq edilməsi nümunəsi kimi,

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin internet resurslarında yayımlanmış maliyyə hesabatlarında verilmiş seqmentar hesabat informasiyalarından nümunələr göstərməyi məqsədəuyğun hesab edirik.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 31 dekabr 2016-cı il tarixə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun Konsolidasiya edilmiş maliyyə hesabatlarında şirkətin tərkibində fəaliyyət göstərən seqmentlər üzrə məlumatlar izahlı qeydlərin "Seqmentlər üzrə məlumat" adlanan 5-ci bölməsində verilmişdir. Burada şirkətdə fəaliyyət göstərən əməliyyat seqmentlərinin qısa xarakteristikası belə verilmişdir: "Əməliyyat seqmentləri – biznes fəaliyyəti həyata keçirərək mənfəət əldə edən və ya xərclərin yaranmasını nəzərdə tutan, fəaliyyət nəticələri əməliyyat məsələləri ilə bağlı əsas qərarları qəbul edən şəxs tərəfindən müntəzəm olaraq təhlil edilən və haqqında ayrıca maliyyə məlumatları mövcud olan müəssisə komponentləridir". [4, s. 255] Daha sonra şirkətin tərkibində aşağıda göstərilən 4 hesabat seqmentinin fəaliyyət göstərdiyi qeyd edilir:

"Qrup məhsul və xidmətlərə görə biznes vahidləri və törəmə müəssisələrinə bölünmüş və dörd hesabat seqmentinə ayrılmışdır:

- Neft və qaz – neft və qaz məhsullarının hasilatını əks etdirir;
- Neftayırma – xam neft və qaz kondensatının ayrılmasını əks etdirir;
- Tikinti – inzibati binaların və neft və qaz kondensatının hasilatı üçün aktivlərin tikintisini əks etdirir;
- Satış və paylaşdırma – xam neft, təbii qaz, neft məhsulları və qaz kondensatının nəqli və satışını əks etdirir.

Yuxarıda göstərilən əməliyyat hesabat seqmentlərini yaratmaq üçün heç bir əməliyyat seqmentləri cəmlənməyib". [4, s. 255]

Həmin izahlı qeydlərdə, həmçinin, əməliyyat seqmentlərinin ümumi xarakteristikasına aid aşağıdakılar göstərilmişdir: "Qrupun seqmentləri ayrı-ayrı müştərilərə yönələn strateji biznes vahidləri və törəmə müəssisələrini əks etdirir. Rəhbərlik resursların bölüşdürülməsi və fəaliyyətin qiymətləndirilməsi üçün ayrı-ayrılıqda biznes vahidləri və törəmə müəssisələrinin əməliyyatlarının nəticələrinə nəzarət edir. Əməliyyat seqmentləri arasında olan əməliyyatlara tətbiq edilən qiymətlər üçüncü tərəflərlə əməliyyatlarda olduğu kimi kommersiya əsasları ilə yaranır. Rəhbərlik hər bir seqmentin fəaliyyətini vergidən sonrakı mənfəət göstəricisinə əsasən qiymətləndirir". [4, s. 255]

Müəssisədə seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin tətbiq edilməsinin mühüm məsələlərindən biri onun biznes fəaliyyətinin mühasibat uçotunda istifadə etdiyi işçi hesablar planının müəssisənin seqmentar idarə edilməsi prinsiplərinə uyğun təkmilləşdirilməsindən ibarətdir. Ümumiyyətlə götürdükdə, hər bir müəssisənin özünün məxsusi biznes fəaliyyətinə uyğunlaşdırılmış mühasibat uçotunun işçi hesablar planı mövcud olmalıdır və o, həmin müəssisənin uçot siyasəti haqqında əsasnaməsinə daxil edilməlidir. Müəssisənin mühasibat uçotunun işçi hesablar planı onun uçot siyasəti haqqında əsasnaməsinin mühüm tərkib hissəsidir. Bizim fikrimizcə, müəssisənin özünün biznes fəaliyyətinin xarakterik xüsusiyyətlərinə uyğunlaşdırılmış mühasibat uçotunun işçi hesablar planının mövcud olması və onun müəssisənin uçot siyasəti haqqında əsasnaməsinə daxil edilərək, müvafiq qaydalarla rəsmiləşdirilməsi məsələsi auditorların diqqət mərkəzində olmalıdır. Ona görə ki, müəssisənin uçot siyasəti haqqında əsasnamə, orada mühasibat uçotunun necə təşkil edilməsini istiqamətləndirən və müəssisə rəhbərinin əmri ilə təsdiq olunmuş əsas rəsmi sənəddir. Müəssisənin biznes fəaliyyətinin mühasibat uçotunun işçi hesablar planı isə həmin rəsmi sənədin çox mühüm tərkib hissəsidir. Qeyd edək ki, müəssisənin uçot siyasəti haqqında əsasnaməsi özünün tərkibində birləşdirdiyi bir sıra sənədlərlə, o cümlədən, müəssisənin mühasibat uçotunun işçi hesablar planı ilə həmin müəssisədə mühasibat uçotunun təşkilinə istiqamət verən təşkilati-idarəetmə mexanizmidir. Təəssüflər olsun ki, müasir dövrdə müəssisə və təşkilatlarda mühasibat uçotunun təşkilinin bu faydalı mexanizmindən lazımi qədər istifadə olunmur. Bu məsələ həm müəssisə rəhbərlərinin, həm də baş mühasiblərin və auditorların diqqətini cəlb etməlidir. Bizim fikrimizcə, istənilən müəssisədə mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası tərəfindən təsdiq





edilmiş yeni uçot qaydalarına uyğun təşkilinin yolu müəssisənin uçot siyasəti haqqında əsasnaməsindən keçir. Bu məsələ müəssisə və təşkilatlarda mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsinin real həyatda necə baş verdiyinə də toxunur. Ona görə də müəssisə və təşkilatlarda uçot siyasəti haqqında əsasnamənin düzgün tətbiq edilməsi mühasibat uçotunun düzgün təşkilinə nəzarət edən dövlət orqanlarının da diqqətini cəlb etməlidir.

Seqment uçotunun tətbiq edilməsi şəraitində müəssisənin uçot siyasəti haqqında əsasnaməsi daha çox aktuallaşır, çünki mühasibat uçotunun seqmentar idarəetmə prinsiplərinə uyğunlaşdırılmasının və seqmentar hesabatlılıq sisteminin təcrübədə həyata keçirilməsinin təşkilati elementləri müəssisənin uçot siyasəti haqqında əsasnaməsində xarakterizə olunur: istər mühasibat uçotunun işçi hesablar planının tətbiq edilməsi olsun, istər uzunmüddətli aktivlərin amortizasiyasının konkretləşdirilməsi olsun, istərsə də ehtiyatların dəyərinin qiymətləndirilməsi, aktiv və öhdəliklərin faktiki qalıqlarının müəyyənləşdirilməsi, gəlirlərin və xərclərin tanınması, mənfəətlə əlaqədar olan məsələlər və digər bu kimi təsirli uçot mexanizmləri olsun, bunların hamısı bir vəhdət şəklində müəssisənin uçot siyasəti haqqında əsasnaməsində qeyd edilir ki, bunlar da öz növbəsində seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin tətbiq edilməsinin mühüm tərkib elementləridir.

### *Nəticə və təkliflər*

Beləliklə, müəssisədə seqment uçotunun əlverişli şəkildə tətbiq edilməsinin yolu onun uçot siyasətinin müvafiq qaydalara uyğun formalaşdırılmasından keçir. Bunun üçün müəssisənin uçot siyasətində seqment uçotunun ruhunu və əsas fəlsəfəsini özündə əks etdirən bəzi dəyişikliklərin edilməsi vacibdir. Bizim fikrimizcə, seqment uçotunun tətbiq edilməsi məqsədi ilə müəssisənin uçot siyasətində edilən dəyişikliklər aşağıda göstərilən bir sıra məsələləri əhatə etməlidir:

1. Müəssisənin uçot siyasəti haqqında əsasnaməsinə seqmentlər üzrə ümumi məlumatlar daxil edilməlidir. Burada seqmentin adı və qısa xarakteristikası əks olunur. Həmin seqmentlərin fəaliyyət göstərmiş olduğu hər ilin sonunda seqmentlər üzrə məlumatlar maliyyə hesabatları üzrə izahlı qeydlərdə açıqlanmalıdır.

2. Müəssisənin mühasibat uçotunun işçi hesablar planı yaradılacaq seqmentlərin növünə, tərkibinə və fəaliyyət istiqamətlərinə uyğunlaşdırılmaqla, seqment uçotunun səmərəli təşkil edilə bilməsi məqsədi ilə təkmilləşdirilməlidir. Bunun əsasında növbəti ilin əvvəlindən tətbiq ediləcək işçi hesablar planı müəssisənin uçot siyasəti haqqında əsasnaməsinə daxil edilməlidir.

3. Müəssisənin uçot siyasəti haqqında əsasnaməsində, seqmentlərə aid olan informasiyaların maliyyə hesabatları üzrə izahlı qeydlərdə necə açıqlanacağına dair siyahı əks olunmalı və bu siyahıda hansı informasiyaların üstünlüklə açıqlanacağı qeyd olunmalıdır. Bizim fikrimizcə, bu siyahıda aktivlər, öhdəliklər, gəlirlər, xərclər və maliyyə nəticələri (mənfəət və ya zərər) yer almalıdır. Bu göstəricilər seqmentlərin təqdim etdikləri seqmentar maliyyə hesabatları üzrə hər ilin sonunda izahlı qeydlərdə açıqlanmalıdır.

4. Seqmentlər üzrə uzunmüddətli maddi və qeyri-maddi aktivlərə amortizasiya ayırmalarının hesablanması metodikası göstərilməlidir.

5. Seqmentlər üzrə gəlirlərin, xərclərin və maliyyə nəticələrinin tanınması, seqmentlərarası dövriyyələrin gəlir və xərclərdən çıxılmasının konkretləşdirilmiş qaydaları əks etdirilməlidir.

6. Hər bir seqmentin kommersiya fəaliyyətinin maliyyə nəticələrinin düzgün müəyyən edilməsi məqsədi ilə müəssisənin seqmentdənkənar fəaliyyətinin qısa xarakteristikası ilə yanaşı, bu fəaliyyət üzrə gəlir və xərclərin əməliyyat seqmentlərinə bölüşdürülərək, onların gəlir və xərclərinə aid edilməsi mexanizmi əks olunmalıdır.

7. Müəssisədə çalışan maddi-məsul şəxslərin tabeçilik prinsipi əsasında məxsus olduqları ümumilikdə müəssisə və ya ayrı-ayrı seqmentlər üzrə biznes fəaliyyətinin daxili idarəetmə hesabatlılığı sisteminin təşkili qaydaları əks etdirilməlidir.

8. Müəssisənin uçot siyasəti haqqında əsasnaməsinə seqmentlərin kommersiya fəaliyyətindən irəli gələn digər məsələlər barəsində zəruri qeydlər də daxil edilməlidir.

## ƏDƏBİYYAT

1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. -17 s.
2. 8 №-li Maliyyə Hesabatlarının Beynəlxalq Standartı. "Əməliyyat seqmentləri". Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. -12 s.
3. 8№li "Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər" adlı Mühasibat Uçotunun Beynəlxalq Standartı. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. -13 s.
4. Səbzəliyev S. Maliyyə hesabatı. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2018, -312s.



***Айнур Аскер кызы Адыгезалова***
***старший преподаватель кафедры***
***"Бухгалтерский учет и аудит" Азербайджанского***
***Университета Кооперации, диссертант***


**Некоторые вопросы адаптации учетной политики предприятия к основным особенностям сегментного учета**


***Резюме***

В статье рассматриваются вопросы, которые могут существенно повлиять на формирование учетной политики предприятия в контексте применения сегментного учета, и предлагаются предложения по совершенствованию учетной политики в соответствии с особенностями сегментного учета.


***Ключевые слова: учетная политика предприятия, сегментный учет, положения, пояснительные записки.***


***Aynur Asgar Adıgozalova***
***senior lecturer of the Department "Accounting and Audit"***
***of Azerbaijan Cooperation University, dissertation***


**Some issues of adapting the accounting policy of the enterprise to the main features of segment accounting**


***Summary***

The article discusses the issues that can significantly affect the formation of the accounting policy of the enterprise in the context of the application of segment accounting, and offers suggestions for improving the accounting policy in accordance with the characteristics of segment accounting.


***Key words: accounting policy of the enterprise, segment accounting, regulations, explanatory notes.***